Yazan
27.12.13 21:08 -



Milli Məclisin plenar iclasında Azərbaycanın ATƏT-in Varşava Bürosu ilə əməkdaşlığından imtina edilməsi təklifi irəli sürülüb.

Deputat Zahid Oruc çıxışında Azərbaycanı ATƏT-in Varşava Bürosu ilə əməkdaşlıqdan imtina etməyə çağırıb.

Zahid Oruc ATƏT-in Varşava Bürosu prezident seçkiləri ilə bağlı yekun rəyi qərəzli adlandırıb: “ATƏT-in Varşava Bürosu casus yuvasıdır. ATƏT Minsk Qrupu nədirsə, Varşava Bürosu da odur. 220 nəfərin mövqeyi bütövlükdə seçkiləri izləyən müşahidəçilərin mövqeyi deyil. Varşava Bürosu Azərbaycanda özünə QHT-lərdən ibarət casus şəbəkəsi yaradıb və onlar vasitəsi ilə informasiya əldə edir”.

Z. Oruc bu təşkilatın prezident seçkiləri ilə bağlı yekun rəyini Azərbaycana təzyiq kimi dəyərləndirib: “Bu təşkilatla əməkdaşlıqdan imtina edilməlidir”.